# ƏLİBABA MƏMMƏDOV

## Ürək deyir, yaşa hələ...



HEYDƏR ƏLİYEV
FONDU

BAKI - 2015

# ƏLİBABA MƏMMƏDOV

## Ürək deyir, yaşa hələ...



Azərbaycan Respublikasının Xalq artisti, muğam, xalq və bəstəkar mahnılarının mahir ifaçısı Əlibaba Baləhməd oğlu Məmmədov 1930-cu il 5 fevral tarixində Bakı şəhərinin Maştağa kəndində anadan olub. 128 və 187 saylı məktəblərdə, 1944-cü ildən Bakıxanov qəsəbəsindəki 1 saylı fabrik-zavod məktəbində oxuyub. İki il sonra Neft Texnikumuna keçirilib və 1947-ci ildə təhsilini başa vurduqdan sonra təyinata əsasən Türkmənistan Respublikasının Nəbitdağ mədənlərində işləməyə göndərilib.

Aşqabad şəhərində baş vermiş zəlzələdən sonra Əlibaba Məmmədov Azərbaycana qayıdıb və istedadlı bir musiqiçi kimi el şənliklərində iştirak edib. Əlibaba Məmmədovun xanəndə kimi yetişməsində Bakının və Abşeron kəndlərinin özünəməxsus muğam mühiti böyük rol oynayıb.

Əlibaba Məmmədov A. Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində ustad xanəndə Seyid Şuşinskinin muğam sinfində təhsil alıb.

1949-cu ilin oktyabrından müsabiqə yolu ilə M. Maqomayev adına Azərbaycan Dövlət Estrada Orkestrində çalışıb.

1953-1978-ci illərdə Filarmoniyanın, 1978-1988-ci illərdə "Azkonsert birliyi"nin solisti olub.

1968-ci ildə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru Niyazinin təşəbbüsü ilə "Hümayun" Xalq Çalğı Alətləri Ansamblını yaradıb və onun bədii rəhbəri olub.

Gənc yaşlarından muğam və xalq mahnılarının mahir ifaçısı kimi tanınan xanəndə xalq ruhunda çoxlu mahnılar, təsniflər, rənglər, dəramədlər bəstələyib.

1963-cü ildə respublikanın Əməkdar artisti, 1989-cu ildə isə Xalq artisti fəxri adına layiq görülüb. Müğənni bir sıra fəxri fərmanlarla, "SSRİ mədəniyyət əlaçısı" fəxri döş nişanı ilə təltif olunub.

1992-ci ildə Əliağa Vahidin əsərlərinə yazdığı mahnı və təsniflərə görə "Vahid" adına mükafata layiq görülüb.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 4 fevral 2000-ci il tarixli fərmanı ilə Əlibaba Məmmədov 70 illik yubileyi ərəfəsində "Şöhrət" ordeni ilə təltif edilib. 8 fevral 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "İstiqlal" ordeni ilə təltif olunub. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Əlibaba Məmmədov 3 qız və 1 oğul atasıdır, 8 nəvəsi, 14 nəticəsi var.

# BƏSTƏKAR
# XANƏNDƏ



Xalq artisti Əlibaba Məmmədovun adı çəkiləndə adamın qəlbində nəğmələr, mahnılar çağlayır, nə vaxtsa onun səsi ilə yaddaşımıza köçmüş muğamlar, mahnılar, təsniflər canlanır:

*Səfərdəyəm, səfərimi*
*Vurmamışam başa hələ.*
*Arzularım, əməllərim*
*Toxunmayıb daşa hələ.*

Yəqin ki, Əlibaba Məmmədovun məlahətli səsi, oxuduğu muğamlar, mahnılar onu illərlə dinləyən hər bir kəsin yaddaşında əks-səda verir. Əlibaba Məmmədovun sənət yolu uzun, dolanbac, əziyyətli, amma çox şərəfli bir yoldur.





Maştağalı Baləhməd kişinin Hacıbaba və Əlibaba adlı iki oğlu, Münəvvər və Leyla adlı iki qızı olub. Böyük oğlu Hacıbaba çox yaşamayıb, on beş yaşında ikən yatalaq xəstəliyindən dünyasını dəyişib.

Əlibaba Məmmədovun atası Baləhməd kişi çox da uzun ömür sürməyib. 1942-ci ildə 58 yaşında vəfat edib. İkinci Dünya müharibəsinin şiddətli illərində, yoxsulluğun, qıtlığın baş alıb getdiyi bir vaxtda ailənin bütün ağırlığı anası Əşrəfxanımın üzərinə düşmüşdü.

Güzəranlarının ağır keçdiyini görən kiçikyaşlı Əlibaba bazarda göy-göyərti sataraq ailəsinə kömək etməyə başlayır. Doğrusu, ömrünün o çağlarında xanəndə olmaq Əlibabanın heç ağlına da gəlmirdi. Ancaq əmisi xanəndə Güləhmədin oxuduğu muğamlara qulaq asmaqdan doymazdı. O, hələ kiçik yaşlarında olarkən dövrünün görkəmli xanəndələrindən Seyid Şuşinskini, İslam Abdullayevi, Zülfü Adıgözəlovu əmisigildə çox görmüşdü. Ancaq qəlbinə xanəndə olmaq arzusu düşməmişdi.

Çox yaxşı musiqi yaddaşı vardı, bir dəfə eşitdiyi mahnı dərhal yaddaşına həkk olunurdu. Çox keçmədən fitri istedadı özünü göstərdi. O, qəpik-qəpik yığdığı puldan özünə bir tar aldı. Heç bir müəllim yanına getmədən, yaddaşının gücünə tar çalmağı öyrəndi. Daha sonra nağarada, klarnetdə, pianoda ifa etməyi də mənimsədi.

Əlibaba on dörd yaşına çatanda anası onu Bakıxanov qəsəbəsindəki 1 saylı fabrik-zavod məktəbinə qoydu. O, burada dərslərini yaxşı oxumaqla yanaşı, məktəbin özfəaliyyət dərnəyində də fəal iştirak edirdi. İki il burada oxuduqdan sonra təhsilinin davam etdirilməsi üçün Neft Texnikumuna keçirildi. Beləliklə, 1947-ci ildə Əlibaba Neft Texnikumunu 7-ci dərəcəli qazmaçı diplomu ilə bitirdi və onun təyinatını Azərbaycanın neft mədənlərinə yox, Türkmənistanın Nəbitdağ mədənlərinə verdilər. O dövrün qanununa görə, təyinata əsasən göndərildiyin müəssisədə məcburi olaraq iki il işləməli idin.





İlk aylardan işlədiyi mədəndə hörmət qazana bildi. İşləri qaydasında gedirdi, yaxşı məvacib alırdı və qazandığı puldan hər ay anasına da göndərirdi. Mədənin rəhbərliyi məvacibini saxlamaq şərti ilə Əlibabaya Aşqabada gedib ali təhsil almağı təklif etdi. Bu təklif onun ürəyincə idi, dörd il oxuyub ali təhsil alacaqdı. O, bu barədə anasına məktub yazıb onun razılığını da almışdı. Lakin Aşqabadda baş verən dağıdıcı zəlzələ hər şeyi alt-üst etdi. Beləliklə də Əlibabanın ali təhsil almaq, yüksəkixtisaslı neftçi olmaq istəyi baş tutmadı. Bu hadisədən sonra Əlibaba Vətənə döndü. Düşünürdü ki, neft mədənlərinin birində işləyəcək, ancaq bir də gözünü açıb özünü incəsənət aləmində gördü. O, musiqi dəstələrindən birinə qoşularaq toylara getməyə başladı. Bir neçə il nağara ifaçısı kimi çalışdı, sonra o zamanlar çox dəbdə olan klarnet alətində ifa etməyə başladı. O toylarda Əlibabanın qəlbində ancaq özünün eşidə bilcəyi bir SƏS də elə hey oxuyurdu. Nəğmə ilə yüklənmiş bu SƏS artıq qəfəsinə sığmırdı, azadlığa can atırdı.





*Zülfü Adıgözəlov və Bəhram Mansurov*

1949-cu il idi. Mədəniyyət evlərinin birinin qarşısında elan asılmışdı və Əlibaba da təsadüfən bu elanı oxumuşdu. Elanda musiqi qabiliyyəti olan gənclər müsabiqədə iştirak etməyə dəvət olunurdu. Əlibaba elanı oxuyub bəxtini sınamaq qərarına gəldi. Bir neçə gündən sonra müsabiqəyə gəldi və münsiflər heyəti iştirakçılarından ancaq Zülfü Adıgözəlovu tanıdı. Çünki bu ustad xanəndəni əmisigildə, kəndlərindəki toy məclislərində çox görmüşdü. Nəhayət, növbə ona çatdı. Zülfü bəy Əlibabadan:

- Oğul, nə oxumaq istəyirsən? - soruşdu.

- "Çahargah".

Xanəndənin qaşları çatıldı:

- "Çahargah" çətin muğamdı, bəlkə başqasını oxuyasan.

Əlibaba şəstlə dedi:

- Ustad, mənim üçün ən çətini sizin qarşınızda oxumaqdı.

Zülfü bəy məmnun-məmnun gülümsədi:

- Yaxşı, buyur oxu, "Çahargah"ına qulaq asaq.

Əlibaba "Çahargah" dəstgahını oxuyub bitirdi. Muğamın "Bəstə-Nigar" şöbəsində özündən düzüb-qoşduğu "Bülbüllər uçdu bağa" misrası ilə başlanan bir təsnif də oxudu. Zülfü Adıgözəlov gəncin oxumağından xoşhal olub, ondan soruşdu ki, muğamatı kimdən öyrənib.

Əlibaba:

- Əmim Güləhməddən, - dedi.

- Maştağalı xanəndə Güləhməd sənin əmindi?

- Bəli.

- Oxuduğun təsnif kimindi? Heç eşitməmişəm.

- Zülfü müəllim, o təsnifi mən özüm düzəltmişəm.

- Çox yaxşı, səni təbrik edirəm. Özün də sabah filarmoniyaya gələrsən, səni estrada şöbəsinə götürürük. Əminə də məndən salam söylə.

Əlibaba sağollaşıb çıxdı. On doqquz yaşlı gəncin uçmağa qanadı yox idi. Filarmoniyaya işə götürüldüyü gün onun taleyində ən unudulmaz gün oldu. Bu tarix onun ömür və sənət yolunun başlanğıcı idi - 5 oktyabr 1949-cu il.





*Soltan Hacıbəyov*



Əlbəttə arzudan arzu doğur. Əlibaba Məmmədovun onda ən böyük arzusu filarmoniyanın solisti olmaq idi. O, oxuduğu nəğmələrdə xalq ruhunun ifadəçisi olduğundan filarmoniyanın o zamankı tanınmış solistləri – Xan Şuşinski, Şövkət Ələkbərova, Sara Qədimova, Fatma Mehrəliyeva, Əbülfət Əliyev, Məmmədağa Muradov, Hacı Məmmədovla çiyin-çiyinə işləmək istəyirdi. Müğənni çox götür-qoy etdikdən sonra o zaman filarmoniyanın bədii rəhbəri olan görkəmli bəstəkar Soltan Hacıbəyova müraciət etməyi qərara aldı və bir gün utana-utana onun kabinetinə daxil oldu. Bəstəkar gənc müğənnini hörmətlə qarşıladı, nə məqsədlə gəldiyini soruşdu. Əlibaba da özünü toplayıb ürəyindəkiləri söylədi.



O dövrdə hər əlinə qaval alan filarmoniyanın solisti ola bilməzdi. Müğənni olmaq, səhnəyə, tamaşaçı qarşısına çıxmaq istəyən kəs çox tələblərə cavab verməliydi. Filarmoniyanın solisti olmaq istəyənin ilk növbədə gözəl, məlahətli səsi olmalıydı, ikinci, səhnə görkəmi yaxşı olmalı idi. Tələb olunan bu cəhətlər Əlibaba Məmmədovda vardı. Qalırdı onu sınaqdan keçirmək. Əlbəttə filarmoniyanın solisti olmaq işin rəsmi tərəfi idi. Bir müğənni kimi sənin səsini, sənətini sevənlər, konsertinə gələnlər də olmalıdır axı. Bütün bunları nəzərə alan Soltan Hacıbəyov dedi:

- Hər şey mümkündür, oğlum. Amma solist olmaq istəyirsənsə, gərək səni sınaqdan keçirək. Sənin üçün iki konsert günü təyin edəcəyik. Əgər konsertinə tamaşaçı gəlsə, səsini, oxumağını xoşlasalar, əlbəttə, səni solistliyə keçirərik.

Konsert günü təyin olundu. Nə səbəbdənsə konsertləri Novruz bayramına – mart ayının 20 və 21-nə salmışdılar. Düzdür, o zaman Novruz bayramı rəsmi keçirilmirdi, amma xalq bu bayrama biganə qalmırdı. Adətə görə hər kəs istəyirdi bayram axşamlarını evində keçirsin. Ancaq Əlibabanın o anda etiraz etməyə, təyin olunmuş vaxtı dəyişməyə heç bir bəhanəsi yox idi. Solist olmaq istəmirdin? Buyur, sınaqdan keç! İşin nəticəsini gözləməkdən başqa çıxış yolu yox idi. Razılaşdı və yerindən durub Soltan Hacıbəyovun otağını tərk elədi.

Bir gün sonra Əlibaba Məmmədovun afişaları paytaxtın küçələrini bəzədi... Gözlənilən gün gəlib çatmışdı. Onun konsertinə kifayət qədər tamaşaçı gəlmişdi. Filarmoniyanın direktoru, inzibati işçilər, xanəndələr də onu dinləməyə gəlmişdilər.

Konsert uğurlu keçdi. Konsertin səhəri Soltan Hacıbəyovun əmri ilə Əlibaba Məmmədov filarmoniyaya solist götürüldü.





Əlibaba Məmmədov artıq filarmoniyanın solisti idi. O, konsertlər verirdi, toylara da gedirdi, amma daxilən hiss edirdi ki, yaxşı, savadlı xanəndə olmaq üçün təhsil almaq çox vacibdir. Təsadüfən bir toyda onun "Rast"ına qulaq asan bəstəkar-tarzən Adil Gəray ona yaxınlaşıb soruşur:

- Sən niyə gəlib musiqi texnikumunda oxumursan?

Əlibaba Məmmədov da cavab verir ki, musiqi məktəbində oxumaq barədə fikirləşir.

A. Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində şöbə müdiri işləyən Adil Gəray ona deyir ki, sentyabr ayında imtahana gəlsin.

O, 1953-cü ilin sentyabr ayında sənədlərini A. Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə verdi. İmtahanı görkəmli muğam biliciləri – Seyid Şuşinski, Əhmədxan Bakıxanov, Adil Gəray və Kamil Əhmədov götürürdülər. Əlibaba Məmmədov imtahanda "Rast" muğamını ifa etdi. Onun haqqında ilk və son sözü də Xalq artisti, ustad xanəndəmiz Seyid Şuşinski söylədi:

- Bala, sabah dərsə gələrsən.

Bu, o demək idi ki, Əlibabanın səsi və ifası ustad sənətkarın xoşuna gəlmişdi. Seyid Şuşinskinin bu çağırışı gənc müğənninin gələcəyinə böyük etimad idi. O, göstərilən bu etimadı doğrultmalı idi. Beləliklə, Əlibaba Məmmədov hamının "Ağa" deyə müraciət etdiyi Seyid Şuşinskinin muğam sinfində oxudu və ustaddan muğamların sirlərini öyrəndi. Ağanın o dövrdə 17 tələbəsi var idi. Əlibaba Məmmədov bu tələbələrin arasında öz fitri istedadı, musiqi yaddaşı, qavrama qabiliyyətinə görə seçilirdi.



*Seyid Şuşinski*





*Qəhrəmanlar məskəni,*
*Zəhmət, hünər vətəni.*
*Sənə qoşdum nəğməmi*
*Mənim Azərbaycanım.*
*Şərəfim, şöhrətim, şanım.*



O dövrlərdə konsertlərdə fonoqram deyilən bir şey ola bilməzdi. Bütün ifalar canlı idi. Hətta respublika radiosu ilə verilən konsertlər də canlı ifa olunurdu. Əlibaba Məmmədovun ilk lent yazıları da məhz o illərə təsadüf edir. Xalq artisti Əhməd Bakıxanovun təşəbbüsü, ustad Seyid Şuşinskinin xeyir-duası ilə Əlibaba Məmmədov 1954-cü ildə respublika radiosunun musiqi fondu üçün "Bayatı-Şiraz" dəstgahı, "Hümayun" təsnifi, "Güllü qafiyə", "Ana yurdum", "Gəl bizə, yar", "Vətənimin cəlalı" mahnılarını lentə yazdırdı. O, muğam dəstgahlarını lap gənc yaşlarından mənimsəyə bilmişdi. Təsadüfi deyildir ki, görkəmli xanəndə "Rast", "Bayatı-Şiraz", "Rahab" və "Dəşti" muğamlarını 24-30 yaşlarında lentə yazdırmışdır.





"Bayatı-kürd" muğamının əsas şöbələrindən olan "Dəşti" muğam ifaçılığı tarixində müstəqil muğam kimi, demək olar, nadir hallarda oxunub. "Dəşti" muğamından söz düşəndə Əlibaba Məmmədov deyir ki, "Dəşti"nin "Bayatı-kürd" və "Kürdü" ilə musiqi dili və intonasiya cəhətdən oxşarlığı var. Buna görə də xanəndə "Dəşti" oxuyarkən son dərəcə ehtiyatlı olmalıdır.

O zamanlar "Dəşti" musiqi məktəblərində ayrıca muğam kimi keçirilmirdi. Əlibaba müəllimin əmisi Güləhməd bir gün sözarası Seyid Şuşinskinin gözəl "Dəşti" oxumasını söyləyir. Gənc müğənninin qəlbində bu muğamı müəllimindən öyrənib oxumaq istəyi baş qaldırır. İstəyini ustadına yetirir. Ağa tələbəsinin sözünü yerə salmayıb onun üçün "Dəşti" muğamını oxuyur ki, bacarırsa yadında saxlasın. Əlibaba Məmmədov da muğamı yadından çıxartmamaq üçün ürəyində dönə-dönə oxuyur, hətta yaddaşına etibar etməyib oxuyub maqnitofona da yazdırır. Bundan sonra o, muğamın üzərində yorulmadan işləyir.





*Bəhram Mansurov*

Əlibaba Məmmədov "Dəşti"ni tam özününküləşdirəndən sonra lentə yazdırır ki, radioda səsləndirilsin. Lakin o zaman radionun musiqi şöbəsinin bəzi əməkdaşları müxtəlif bəhanələrlə buna mane olurlar. Bu minvalla altı ay keçir. Müğənninin yuxusuz gecələrinin bəhrəsi olan "Dəşti" muğamı səsləndirilmir. Xanəndə bu biganəliyə, haqsızlığa dözməyib görkəmli muğam bilicilərinə – Seyid Şuşinski, Əhmədxan Bakıxanov və Bəhram Mansurova müraciət edir. Ustadlar Əlibaba Məmmədovla radionun musiqi şöbəsinə gəlirlər və onun ifasında "Dəşti" muğamına qulaq asırlar. Burada da ilk və son sözü Ağa deyir:

- Necə öyrətmişəm, Əlibaba elə də oxuyub. İcazə verin efirə getsin.

Əhmədxan Bakıxanovla Bəhram Mansurov da Ağanın fikrinə qüvvət verirlər. Beləliklə, 1959-cu ilin yayında Əlibaba Məmmədovun ifasında ilk dəfə səslənən "Dəşti" muğamı müğənniyə şöhrət gətirir. O vaxtdan müğənnilərin repertuarında xalq mahnısı adı ilə ifa olunan "Dəşti" təsnifi bugünədək səslənməkdədir.

Əlibaba Məmmədov həmçinin "Hümayun", "Çahargah" muğamlarının da ən yaxşı ifaçılarındandır. Onun oxuduğu "Hümayun" muğamı xüsusilə seçilir.



Əlibaba Məmmədov xanəndə bəstəkardır. Onun yazdığı bütün mahnılar, təsniflər, rənglər, dəramədlər Azərbaycan muğamlarından bəhrələnib. O, təkcə "Çahargah" muğamı üstündə 20-yə yaxın mahnı, təsnif bəstələyib.

Musiqi ilə poeziya qoşa qanaddır. Gənc xanəndə musiqi ilə sözün vəhdətinin necə böyük əhəmiyyət kəsb etdiyini yaxşı başa düşürdü və oxuyacağı muğamın ruhuna yaraşan qəzəllər axtarırdı. Və axtardığını S. Ə. Şirvaninin qəzəllər külliyyatında tapdı. Seyid Əzimin "Nə bu gün bağda yarım, nə meyim var mənim, Seyri-gülzaridə bihudə nəyim var mənim?" beytilə başlayan qəzəli muğamın daxili ölçüsünə tam uyğun gəlirdi. Muğamın daxili gərginliyinə bahar mehi gətirən təsnifi də qoşmaq lazım idi. Müğənni Seyid Əzimin "Qəmindən qönçətək dil qanə döndü" misrasını oxuyan kimi qəlbindən həzin bir melodiya ötüb keçdi və tez tarı götürüb o vaxta qədər heç kəsin eşitmədiyi təsnifi tarda çalmağa başladı. Bir sözlə, xanəndə bu muğama yeni boyalar, yeni naxışlar vurmaqla onu yeni qiyafəyə saldı. "Zəminxarə", "Ruhul-ərvah" və "Bidad" muğam şöbələrindən bitkin avazlar seçərək, oxuduğunun əhatə dairəsini genişləndirib onu kiçik, lakin müstəqil muğam şəklinə saldı. Bu, xanəndənin yaradıcılığında böyük uğur idi.

Əlibaba Məmmədov müasirləri olan bir çox şairlərlə dostluq edib, onların şeirlərinə mahnılar, təsniflər qoşub. Belə şairlərdən biri də ölməz qəzəl ustadımız Əliağa Vahiddir. Xanəndə şairin sözlərinə yazdığı mahnı və təsniflərə görə 1992-ci ildə "Vahid" mükafatı alıb.

Təəssüf hissi ilə deməliyik ki, Sovet hakimiyyəti illərində Əlibaba Məmmədov kimi sənətkarların mahnı bəstələməsinə laqeyd münasibət vardı. Ancaq konservatoriya təhsili almış peşəkar bəstəkarlar mahnı yaza bilərdilər. Buna görə də Əlibaba Məmmədov öz mahnılarını geniş dinləyici kütləsinə çatdırmaq üçün onları xalq mahnısı, təsnif adı ilə lentə, vala yazdırırdı. Onun bəstələdiyi mahnı və təsniflər melodiyasının ifadəliyinə, tərbiyəvi əhəmiyyətinə, aşıladığı bəşəri ideyaya görə çox qiymətli və dəyərlidir.





Xanəndənin mahnı və təsnifləri yalnız özünün deyil, adlı-sanlı müğənnilərin də repertuarında mühüm yer tutur. Onun "Ana yurdum", "Mənim Azərbaycanım", "Bakı", "Vətən yaxşıdır", "Beləyəm", "Ürək deyir: "Yaşa hələ!", "Ağarma, saçım", "Sədaqət məni", "Min yaşasın", "Gəl bizə, yar", "Özün bilərsən" mahnıları, "Rast", "Mahur", "Dügah", "Qatar", "Bayatı-Qacar", "Şur", "Segah", "Dəşti", "Bayatı-Şiraz", "Çahargah" və s. təsnifləri dillər əzbəridir.

Əlibaba Məmmədov vaxtilə təkcə Azərbaycanda deyil, keçmiş Sovet İttifaqının bir çox respublikalarında konsertlər verərək tamaşaçıların dərin rəğbətini qazanmışdır. O, nəinki ölkəmizdə, onun hüdudlarından çox-çox kənarda da sayılıb-seçilən bir nəğməkardır.

Görkəmli xanəndə 1959 və 1961-ci illərdə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Ongünlüklərinin iştirakçısı olmuş, haqqında dövri mətbuatda, o cümlədən "Pravda" qəzetində dəyərli fikirlər söylənilmişdir. O, həmçinin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif olunmuşdur.







*Gündüzün kimidir gecələrin də,*
*Ayaq izlərim var küçələrində.*
*Olsam da dünyanın mən hər yerində*
*Sənsiz açılmayır səhərim mənim.*
*Şeirimsən, mahnımsan, sözümsən Bakı!*
*Mənim uzaq görən gözümsən, Bakı!*
*Canım-ciyərimsən, özümsən, Bakı!*
*Sayıq keşikçindir nəzərim mənim*
*Öz mavi aynamdır Xəzərim mənim.*



Əlibaba Məmmədov incə zövqlü musiqiçidir. O, 1968-ci ildə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru, dirijor-bəstəkar Niyazinin şəxsi təşəbbüsü ilə bugünədək fəaliyyət göstərən "Hümayun" Xalq Çalğı Alətləri Ansamblını yaratmışdır. Əlibaba müəllim bədii rəhbər kimi istedadlı gəncləri – Tofiq Məmmədov (tar), Hilal Məmmədov (kamança), Ələkbər Əsgərov (klarnet), Yasəf Eyvazov (ud), Hüseyn Həsənov (qarmon), Fuad Əzimzadə (piano) kimi çalğıçıları, Səxavət Məmmədov, Məmmədbağır Bağırzadə, Zümrüd Məmmədova, Validə Mahmudova, Təhmiraz Şirinov kimi müğənniləri "Hümayun" ansamblına cəlb etmişdi.

Musiqi ifaçılığı tarixində özünəməxsus yeri olan "Hümayun" ansamblının öz repertuarı, dəst-xətti vardı. Bu ansambl öz zəngin, çoxçalarlı, rəngarəng repertuarı ilə xalqımızın estetik zövqünün formalaşmasında müsbət rol oynamışdır.

Əlibaba Məmmədov görkəmli pedaqoqdur. O, iyirmi ildir ki, Bülbül adına musiqi məktəbində və hal-hazırda musiqi kolleci olan A. Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində (1963-cü ildən fasilələrlə) dərs deyir. Bir çox tanınmış xanəndələrimiz, Xalq artistləri – Canəli Əkbərov, Məmmədbağır Bağırzadə, Əməkdar artist Qaraxan Behbudov, Əyyub Xəlilov və başqaları onun tələbəsi olmuşlar. İndi onun tələbələrinin çoxu adlı-sanlı xanəndələrdir və tələbələrinin sırasında pedaqoji fəaliyyət göstərənlər də çoxdur.














Yaradıcılığı və pedaqoji fəaliyyəti ilə milli musiqi xəzinəmizin zənginləşdirilməsində böyük rolu olmuş ustad sənətkarın xidmətləri hər zaman xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, respublikanın Əməkdar və Xalq artisti fəxri adlarına layiq görülüb, bir sıra fəxri fərmanlarla, "SSRİ mədəniyyət əlaçısı" fəxri döş nişanı ilə təltif olunub. Ustad sənətkarın 60, 70, 80 illik yubileyləri təntənəli surətdə qeyd olunub.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 4 fevral 2000-ci il tarixli fərmanı ilə Əlibaba Məmmədov 70 illik yubileyi ərəfəsində "Şöhrət" ordeni ilə təltif edilib. 2010-cu ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ustad sənətkarı "İstiqlal" ordeni ilə təltif edib. O, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

10 may 2009-cu ildə qədim muğam irsinin qorunmasında, muğam ifaçılıq məktəbinin inkişafında, yeni ifaçılar nəslinin yetişməsindəki xidmətlərinə görə Xalq artisti Əlibaba Məmmədov Heydər Əliyev Fondunun təsis etdiyi "Qızıl çinar" beynəlxalq mükafatına layiq görülüb.





## Ə. B. MƏMMƏDOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA
## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
## FƏRMANI

Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Əlibaba Baləhməd oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 fevral 2000-ci il.

Xalq artisti Əlibaba Məmmədova

Hörmətli Əlibaba Məmmədov!

Sizi, Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsini, 70 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz xalq musiqimizin incəliklərini, klassik Azərbaycan poeziyasının nümunələrini gözəl bilən və öz orijinal ifa üslubu ilə milli musiqi xəzinəmizi zənginləşdirən sənətkarlardansınız. Muğam, təsnif və xalq mahnılarımızın mahir ifaçısı kimi sizin əlli illik yaradıcılıq yolunuz milli xanəndəlik məktəbinin ənənələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi işinə xidmətin gözəl nümunəsidir. Klassik musiqimizin bir çox incilərinə yeni nəfəs, yeni həyat verməklə fitri istedadınızı, novatorluq bacarığınızı və böyük işgüzarlığınızı əyani şəkildə nümayiş etdirmisiz. Yüksək səhnə mədəniyyəti, məlahətli səs və bənzərsiz ifa tərzi ilə səciyyələnən sənətiniz xalqımızın böyük rəğbət və məhəbbətini qazanmışdır.

Uzun illər rəhbərlik etdiyiniz "Hümayun" Xalq Çalğı Alətləri Ansamblı milli musiqimizin təbliğ olunmasında və ölkəmizdə yeni istedadların üzə çıxarılmasında mühüm rol oynamışdır. Öz repertuarının rəngarəngliyi və zənginliyi ilə seçilən bu ansamblın fəaliyyəti musiqi ictimaiyyətimiz tərəfindən həmişə yüksək qiymətləndirilmişdir.

El musiqisi əsasında yaratdığınız mahnı və təsniflər çoxşaxəli yaradıcılığınızın yeni çalarlarını aşkar etmişdir. Vətən, xalq sevgisi, yüksək əxlaqi dəyərləri tərənnüm edən bu əsərlər ölkəmizin musiqi həyatında öz layiqli yerini tutmuşdur.

Sizin Asəf Zeynallı adına Musiqi Texnikumu və Bülbül adına Orta İxtisas Musiqi Məktəbindəki pedaqoji fəaliyyətiniz də təqdirəlayiqdir. Respublikada istedadlı ifaçıların yeni nəslinin yetişdirilməsində sizin zəhmətiniz böyükdür. Onların bir çoxu artıq öz yaradıcılığı ilə xalq arasında böyük hörmət qazanmış adlı-sanlı sənətkarlardır.

İnanıram ki, zəngin təcrübənizdən istifadə edərək yeni xanəndələr nəslinin yetişdirilməsi yolunda bundan sonra da əlinizdən gələni əsirgəməyəcək və muğam ifaçılığı məktəbinin daha da inkişaf etdirilməsi üçün səylərinizi davam etdirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 fevral 2000-ci il.




HEYDƏR ƏLİYEV
FONDU











Əlibaba Məmmədov muğam xiridarıdır. O, Azərbaycan muğamlarını incəliyinə qədər bilən bir sənətkardır. 2005-ci ildən Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə keçirilən muğam müsabiqələrində münsiflər heyətinin üzvlərindən biri olan Əlibaba Məmmədov muğam bilicisi və ədalətli bir münsif kimi bir daha xalqın məhəbbətini qazanmışdır.





*Sənin eşqin məni gətirdi dilə,*
*Necə aşiq olub bülbüllər gülə.*



Sevimli sənətkarımız Əlibaba Məmmədov üç qız, bir oğul atasıdır. O, bu gün babalığın zirvəsindədir, 8 nəvəsi, 8 nəticəsi var.

Xanəndənin nəğmələri milyonların ürəyində əks-səda verir. Sənətkar üçün bundan böyük mükafat, bundan böyük xoşbəxtlik yoxdur. Əlibaba Məmmədov məhz belə xanəndələrdəndir.













# *Ürək deyir: "Yaşa hələ!"*

*Səfərdəyəm, səfərimi,*
*Vurmamışam başa hələ.*
*Arzularım, əməllərim,*
*Toxunmayıb daşa hələ.*

*İlləri yola salmışam,*
*Mahnı qoşub saz çalmışam.*
*Ömür deyir: "Qocalmışam",*
*Ürək deyir: "Yaşa hələ!"*

*Dolanıb kəndi, şəhəri,*
*Dağlarda açdım səhəri.*
*Könlüm gəzir üfüqləri,*
*Dönüb qızıl quşa hələ.*



Mətnin müəllifi: Mustafa Çəmənli

Redaktor: Afət Əliyeva

Korrektor: Emin Məmmədov

Dizayn: Alf Group Design

© Heydər Əliyev Fondu, 2015

İSBN: 978-9952-499-10-0